**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İNSAN HÜQUQLARI İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RZA RİZVAN OĞLU AXUNDOV**

# AZƏRBAYCAN-NATO ƏMƏKDAŞLIĞININ HƏRBİ-SİYASİ ASPEKTLƏRİ

**5901.01 – “Beynəlxalq münasibətlər”**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI-2014**

Dissertasiya işi AMEA-nın İnsan Hüquqları İnstitunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Pərvin Qulam oğlu Darabadi
tarix elmləri doktoru, professor

**Rəsmi opponentlər:** İradə Mehdiqulu qızı Hüseynova
tarix elmləri doktoru, professor

Qurban Heydər oğlu Məmmədov
siyasi elmlər üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

Müdafiə «__07__» __03__ 2014-cü ildə saat ____da AMEA İnsan Hüquqları İnstitunun nəzdindəki Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Hüseyn Cavid prospekti 31

Dissertasiya işi ilə AMEA İnsan Hüquqları İnstitunun Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» ___ _________ 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi** Rəşad Əşrəf oğlu Hüseynov
siyasi elmlər üzrə fəlsəfə doktoru

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** XX yüzilliyin 90-cı illərində baş vermiş qlobal dəyişikliklər, "soyuq müharibə"nin başa çatması, Yalta-Potsdam sisteminin süqutu nəticəsində dünyanın geosiyasi mozaikasının dəyişməsi NATO-nun fəaliyyətinə bir sıra yeniliklər gətirdi. Yeni beynəlxalq şəraitdə NATO kollektiv təhlükəsizlik missiyasını özünün başlıca vəzifəsinə çevirmişdir. Avro-Atlantika məkanında sülhün, sabitliyin və təhlükəsizliyin təminatında mühüm rol oynayan NATO artıq həmin məkanla kifayətlənməyərək öz fəaliyyət səhnəsindən kənarda əməliyyatlar həyata keçirirdi.

Azərbaycanın milli təhlükəsizliyi onun dünya və region dövlətləri, habelə beynəlxalq təşkilatlarla tarazlı strateji xətt yeritməsini zərurətə çevirmişdir. Ümummilli lider H.Əliyev Azərbaycan Respublikasının xarici siyasət prioritetlərindən bəhs edərək qeyd edirdi ki, «dəyişən dünyamızda Azərbaycanın siyasi missiyası dost və tərəfdaş axtarışına, blok və İttifaqların çoxvariantlılığına yönəlmişdir. Bu, Azərbaycanın dünya dövlətləri ailəsində statusunu, suverenliyini möhkəmləndirəcək, həm də müxtəlif dövlətlərlə yaxınlaşmasına kömək edəcəkdir».[1] Bu mənada Azərbaycanın milli təhlükəsizliyi bütövlükdə Qafqazda regional təhlükəsizliklə sıx bağlıdır və ümumavropa təhlükəsizliyinin kompanentlərindən biri kimi çıxış edir.

Müasir dövrdə beynəlxalq təhlükəsizlik – qlobal, ümumi, regional və kollektiv təhlükəsizliyin kompleksindən ibarətdir. Müasir dövrdə Cənubi Qafqaz, xüsusilə Azərbaycan ümumavropa təhlükəsizlik sisteminə inteqrasiya olunmaqda, Avropa ölkələrinin enerji təchizatında mühüm rol oynamaqdadır. Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin III müşavirəsindəki çıxışında Respublika Prezidenti İ.Əliyev məhz bu məqamı xüsusi vurğulayaraq qeyd etmişdi ki, «bizim siyasi və diplomatik səylərimiz nəticəsində Azərbaycan haqqında vaxtilə formalaşmış mənfi rəy artıq tamamilə dağılıbdır… Bu gün Azərbaycan regional çərçivədə çox önəmli rola malikdir. Getdikcə bu rol daha da böyüyəcəkdir. Biz artıq regional çərçivələrdən çıxıb böyük əməkdaşlıq məkanında öz rolumuzu gücləndiririk. Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər, konkret layihələr, əməkdaşlığa yönəlmiş enerji siyasətimiz ölkəmizin imkanlarını gücləndirir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaradır…. Uğurlu xarici siyasətimiz, beynəlxalq təşkilatlarda təşəbbüslərimizə dəstəyin verilməsi, xüsusilə BMT Baş Məclisində qətnaməmizin dəstəklənməsi bizim böyük siyasi və

---

[1] Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. B., Azərnəşr, 1994, s. 31

diplomatik qələbəmizdir. Biz bu səyləri artırmalıyıq».[1]

Cənibi Qafqazda öz aktiv fəaliyyəti ilə fərqlənən Azərbaycan Respublikası tarixin keşməkeşli yollarında daima öz müstəqilliyi uğrunda mübarizə aparmış və bunun nəticəsi olaraq, 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini əldə etmişdir. 1993-cü ildən isə Heydər Əliyevin hakimiyyətə yenidən qayıtması ilə Azərbaycan öz müstəqilliyini daha da möhkəmləndirmişdir. 12 noyabr 1995-ci ildə isə müstəqil Azərbaycan Respublikasının ilk demokratik konstitusiyası qəbul olunmuşdu ki, burada Azərbaycan Respublikasının ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əminamanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək niyyəti bəyan edilmişdir.[2]

Cənubi Qafqazın təhlükəsizliyində "region dövlətləri" ilə yanaşı, "regiondan kənar dövlətlər" də mühüm rol oynayırlar. Təsadüfi deyil ki, Azərbaycan, Gürcüstan, Türkiyə və Ukraynanın "regiondan kənar qüvvələrə" yanaşmadakı eyni mövqeyi onları daha sıx bağlamışdı. Regiona münasibətdə Rusiya və İranın ambisiyaları daha güclüdür. İran İslam Respublikası Cənubi Qafqazda təhlükəsizlik məsələlərində xarici qüvvələrin iştirakına mane olmaq məqsədilə "3+3" formuluna, yəni üç Cənubi Qafqaz ölkəsi "üstəgəl" Rusiya, İran və Türkiyə formuluna israrlıdır.[3]

Tədqiqatda dəyişməkdə olan dünyada NATO-nun rolu müasir dövrdə Cənubi Qafqazda cərəyan edən hadisələr fonunda, lakin Azərbaycanın maraqları baxımından araşdırılır, Azərbaycan-NATO əməkdaşlığının hərbi-siyasi aspektləri mövcud reallıqlara uyğun olaraq tədqiq edilir. Meydana çıxmaqda olan yeni təhdidlərin cavablandırılması üçün transformasiyanı həyata keçirən NATO-da edilmiş dəyişikliklər onun tərəfdaşlıq və dialoq təşəbbüsləri kontekstində Sülh Naminə Tərəfdaşlıq (SNT) proqramının məqsəd və vəzifələrinə uyğun olaraq həmin proqrama qoşulmuş tərəfdaş ölkələrin NATO ilə əməkdaşlıq səviyyələri tədqiqat obyektinə çevrilir ki, bu sırada Azərbaycan da özünəməxsus yer tutur. NATO-nun təhlükəsizlik gündəliyində duran məsələləri əks etdirən NATO Sammitləri ən əsasıda İstanbul Zirvə görüşünün qərarları müasir beynəlxalq təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır.

Digər tərəfdən, NATO Sammitlərinin yekun sənədlərini təhlil etdikdə görürük ki, Sammitlərin sənədlərində, o cümlədən Şimali Atlantika Əməkdaşlıq Şurasının 11 yanvar 1994-cü ildə Brüsseldə qəbul edilmiş Bəyannaməsində (maddə 21), daha sonra NATO-nun 29 iyun 2004-cü il

---

[1] Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin üçüncü müşavirəsi keçirilmişdir. Prezident İlham Əliyev müşavirədə iştirak etmişdir// Respublika qəzeti, 2008, 8 iyul.

[2] Azərbaycan Respublikasının Konstitusiyası (Əsas Qanun). B., Biznes xəbərləri, 2012, s. 3

[3] Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. B., Hərbi nəşriyyat, 1998, s. 121, 135

İstanbul (maddə 31), 29 noyabr 2006-cı il Riqa (maddə 43), 3 aprel 2008-ci il Buxarest (maddə 43), 19 noyabr 2010-cu il Lissabon (maddə 47) və 20 may 2012-ci il Çikaqo (maddə 35) bəyənnamələrində "Qafqazın ərazi bütövlüyünün dəstəkləndiyi"qeyd edilirdi. Lakin bunun hüquqi və siyasi tərəfinə diqqət yetirsək görərik ki, hüquqi baxımdan NATO Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birbaşa məşğul olan təşkilat deyildir. Bunu NATO-nun Baş katibi Rasmussenin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı suala cavabı da aydın şəkildə göstərir: "Şimali Atlantika Alyansı Dağlıq Qarabağ münaqişəsinin həllində rol oynamır." Beynəlxalq təşkilatların münaqişələrə münasibətdə "ikili standartlardan" çıxış etməsinin adiləşməsinə baxmayaraq NATO-nun hər il keçirilən toplantılarında Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi qeyd edilirdi. Bu isə diplomatiyamızın başlıca uğurudur.

Minilliklərin qovşağında NATO qitə dövlətlərini hərbi və müdafiə məsələləri baxımından bir araya gətirə bildiyi halda, Avropa İttifaqının genişlənməsi təkcə Avropanın bütövləşməsinə xidmət etmirdi, eyni zamanda ümumavropa siyasi və iqtisadi məkanına Avropanın şərqində və cənubunda yeni qonşuların birliyə qoşulması perspektivlərini açırdı ki, bunun nəticəsində müda-fiə və siyasi məkanın hüdudları ust-üstə düşməklə regional təhlükəsizliyin yeni mozaikası təşəkkül tapmağa başlayırdı.[1]

Cənubi Qafqazı özünün təhlükəsizlik zonasına daxil edən NATO-nun strateji və taktiki xəttində region ölklərinin hər biri ilə əməkdaşlığın inkişafı səciyyəvi xüsusiyyətlərə malikdir və ilk növbədə həm Azərbaycanın, həm də Gürcüstanın milli təhlükəsizliyinin təmin edilməsinə istiqamətlənmişdir. Lakin ABŞ-ın 907-ci düzəlişə əsasən qoyduğu embarqo hərbi-siyasi sahədə Azərbaycan-NATO əməkdaşlığını ciddi şəkildə əngəlləyirdi. Ümumilli lider H.Əliyevin məqsədyönlü xarici siyasət xətti 1999-cu ilin noyabrında ABŞ-ın qeyri-rəsmi şəkildə bu embarqonu dondurması ilə nəticələndi ki, bununla da Azərbaycan-NATO əməkdaşlığının hərbi-siyasi aspektləri mühüm əhəmiyyət kəsb etməyə başladı və göstərilən sahənin müxtəlif istiqamətlərdə inkişafını şərtləndirdi.

Tərəflər arasında dialoqun uğurlu perspektivlərini hələ 1997-ci ilin fevralında NATO Baş katibi X.Solananın Azərbaycana səfəri zamanı hazırlanmış "Prezentasiya sənədi" aydın şəkildə göstərirdi. Sənədə əsasən Azərbaycanda ordu quruculuğu və onun təchizatı NATO nümunəsinə əsasən həyata keçirilməyə başlamışdı.[2] Bu prosesin hərbi-siyasi müstəviyə keçirilməsi isə nəinki Azərbaycanın, ümumiyyətlə Cənubi Qafqazın təhlükəsizliyi baxımından ciddi perspektivlərə malik olub yeni inkişaf istiqamətlərinin meydana gəl-

---

[1] Европейский Союз на пороге XXI века/ Под ред. Ю. А. Борко. М., Междунар. отношение, 2001, с. 164

[2] Azərbaycan Respublikası XİN-in arxivi. Beynəlxalq təşkilatlar idarəsi. Arayış, 1991-1997, s. 2

məsini şərtləndirmişdi.

Müasir elmi-siyasi fikrə görə, Azərbaycan Respublikası hazırda regionun dayaq mərkəzlərindən birinə və Rusiyanın Cənubi Qafqaz siyasəti yolunda başlıca maneəyə çevrilmişdir. Digər tərəfdən Azərbaycan Rusiyanın Yaxın Şərq siyasətini əngəlləməklə həm ABŞ-ın, həm də Avropa İttifaqının geosiyasi maraqlarını təmin edir. Təsadüfi deyil ki, XXI yüzilliyin əvvəllərindən etibarən NATO-nun Azərbaycan siyasətində hərbi aspekt mühüm əhəmiyyət kəsb etməkdədir.

Azərbaycan-NATO əməkdaşlığının hərbi-siyasi aspektlərinin hərbi siyasət istiqamətinə diqqət yetirsək onda görərik ki, bu regionun mövcud konfiqurasiyası və geosiyasi maraqların toqquşması fonunda ilk növbədə respublikamızın milli təhlükəsizliyinin təmin edilməsi perspektivləri və regional təhlükəsizlikdə yeri baxımından öz aktuallığını zaman-zaman saxlayacaqdır.

**Mövzunun işlənmə dərəcəsi.** Dissertasiya işinin yazılmasında müxtəlif qaynaqlardan, çoxsaylı və müxtəlif ədəbiyyatdan habelə, son dövrlərdə qərbdə nəşr olunmuş kitab və dövrü mətbuat materiallarından istifadə edilmişdir. Qərb müəlliflərindən D.Yost soyuq müharibə başa çatdıqdan sonra yaranmış dövrün reallıqlarından çıxış edərək NATO-nun vəzifə və məqsədlərində baş vermiş yenilikləri araşdırır, kollektiv müdafiə və kollektiv təhlükəsizlik anlayışlarının elmi-nəzəri baxımdan izahını verir və NATO-nun öz üzərinə götürdüyü yeni təhlükəsizlik rollarına aydınlıq gətirirdi.[1]

Qərb müəlliflərindən R.Kagan müasir dövrdə Avro-Atlantika münasibətlərini araşdıraraq hazırda Atlantik okeanının hər iki tərəfində yaşanan böhranın təhlilini verir və göstərir ki, tərəflər arasında mövcud olan qüvvələr fərqi qüdrətli ABŞ-ı mövcud problemləri hərbi qüvvə tətbiq etmək yolu ilə, məhdud imkanlara malik Avropanı isə diplomatik vasitələrlə həll etməyə vadar edir. [2]

İraq hadisəsindən sonra transatlantik münasibətlərdə baş vermiş dərin fikir ayrılığının səbəblərini araşdıran M. Herpen başlıca fərqin tərəflər arasında yeni hədə və təhdidlərə yanaşma fərqinin olmasında görür. Müəllif eyni zamanda, tərəflər arasında soyuq müharibə dövründə olduğu kimi, təhlükəsizlik məsələləri üzrə sistemli və ardıcıl dialoqun olmamasını əsas problem kimi dəyərləndirir. [3] S.Kornel[4] və J. Saymon[1] kimi Cənubi Qafqaz regionu üzrə

---

[1] Yost D.S. NATO Transformcd. thc Alliancc's nevv roles in inlernalional security. United Statcs Institutc of JCC. 1998, p. 49

[2] Kagan R. Of Paradise and Pover. America and Europe in the New World Order, New York, 2003, p. 26

[3] Marcel H. Herpen. Six Dimensions of the growing Transatlantic divide: Are the US and Europe definitely driving themselves apart? / www.cicerofoundation.org

[4] Cornell S. NATO after Enlargement: PfP shifts emphasis to Central Asia and the Caucasus. NIASnytt. No.2, 2004, s. 11

xarici mütəxəssislərin məqalələri və elmi araşdırmaları, NATO-nun İctimai Diplomatiya departamenti tərəfindən edilmiş nəşrlər, [2] NATO-nun rəsmi sənədlərindən[3] Alyansın bu regiondakı rolunun və perspektivlərinin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Avro-Atlantika məkanının bir hissəsi olan və Alyansın fəal tərəfdaş ölkəsi kimi Azərbaycan ictimaiyyətinin NATO, onun yeni vəzifələri, təhlükəsizliyin təminatında rolu və s. kimi məsələlərlə məlumatlandırılmağa ciddi ehtiyacı vardır. Belə ki, Alyansla dərin əməkdaşlıq münasibətlərinin qurulmasına ictimai dəstəyin verilməsi, ölkəmizin Avro-Atlantika təhlükəsizlik məkanına inteqrasiya prosesinin sürətlənməsi son dərəcə vacib vəzifələrdəndir. Fikrimizcə, mövzu üzrə elmi araşdırmaların aparılmasına və müvafiq nəşrlərin edilməsinə böyük diqqət ayrılmalıdır.

Disseratsiya üzərində işləyərkən Azərbaycan, rus, türk və ingilis dillərində yazılan ədəbiyyat və mənbələrdən istifadə olunmuşdur ki, bunlar mövzunun mahiyyətinin daha da dərindən öyrənilməsinə xidmət etmişdir. Milli siyasətşünaslıqda regional təhlükəsizliklə problemlər daimi tədqiqat mövzusu kimi öz aktuallığını saxlamaqdadır. Tədqiqatda regional və milli təhlükəsizliklə bağlı Azərbaycan müəlliflərindən R.Mehdiyevin, Ə.Həsənovun, H.Hüseynovanın, P.Darabadinin, A.Piriyevin, C.Eyvazovun, A.Mirabdullayevin, E.Nəsirovun, N.Nəsiblinin, türk müəlliflərindən T.Ataövün, İ.Balın, K.Ögütün, O.Nuri Arasin, H.Şimşekin, F.Sönmezoğlunun və başqalarının elmi əsərlərindən istifadə olunmuşdur.

Problem rus və qərb politoloji fikrinin da daim diqqət mərkəzində saxladığı məsələlərin sırasındadır. Rus müəlliflərindən A.Duqin, S.Çernyavski, S.Baburin, N.Nartov, V.Derqaçev, A.Utkin, K.Qadjiyev, İ.İvanov və başqları dünyada və regionda baş vermiş reallıqları qəbul etsələr də, hadisə və proseslərə birtərəfli və qeyri-obyektiv münasibət bəsləməkdən çəkinmirlər. Rusiyanın Cənubi Qafqazla bağlı nastolgiyasının hələ uzun müddət davam edəcəyini nəzərə alsaq iki yüz ildən artıq hegemonluq etdiyi regionun onun nüfuz dairəsindən uzaqlaşmaqda olması ilə elə də tezliklə barışmayacağını görürük. Təsadüfi deyil ki, A.Duqin «Qafqaz düyünündən» bəhs edərkən regionun müasir vəziyyətinin kifayət qədər mürəkkəb olduğunu nəzərə çarpdırır[4], K.Qadjiyev H.Əliyevin neft diplomatiyasının cənubda Rusiyaya qarşı Azərbaycan-ABŞ-Türkiyə alyansının yaradılmasına xidmət etdiyini göstərir[5], N.Nartov isə açıq-

---

[1] Simon J. Partnership for Peace at the Istanbul Summit: Dead on Arrival or Revival? / www.ndu/inss/symposia/europe2004/siinonpaper.htın[4]

[2] NATO Transformed, Public Diplomacy Division, NATO, 2004

[3] NATO/EAPC Unclassified, 14 June 2004, Document EAPC (C)D(2OO4)0030

[4] Дугин А. Основы геополитики. Геополитическое будущее России. Мыслить Пространством. М., АРКТОГЕЯ-центр, 2000, с.307

[5] Гаджиев К. Геополитика Кавказа М., Между. отношение, 2001, с. 312

casına yazırdı ki, ABŞ başda olmaqla NATO ölkələri rəhbərləri «lay-lay çala-çala Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaqdadırlar»[1].

Azərbaycanın strateji mövqelərinin möhkəmlənməsi, Türkiyə ilə strateji müttəfiqliyin uğurları Qərb müəlliflərinin diqqətindən yayınmırdı. Belə müəlliflərdən Z.Bzejinski, H.Kissincer, B.Koppiters, S.Kornell, A.Kohen və başqalarının əsərlərində regionda baş verənlər daha obyektiv qiymətləndirilir və Azərbaycanın öz milli təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək məqsədilə Türkiyə, ABŞ, İsrail və Qərb dövlətləri ilə yaxınlaşmağa cəhd göstərməsinə haqq qazandırılır. Rusiyanın Qafqaz regionu siyasətindəki bitərəflik və qeyri-tarazlıq regionun Azərbaycan və Gürcüstan kimi dövlətlərini Qərbə istiqamətləndirir fikrinə demək olar ki, müasir siyasətşünaslığın bütün istiqamətlərdə rast gəlmək mümkündür.

**Tədqiqatın mənbəşunaslıq bazası.** Dissertasiyada qoyulan problemlərə aid Azərbaycanın ictimai elm xadimləri tərəfindən qələmə alınmış bir sıra siyasi-tarixi kitablar nəşr olunmuşdur. Bu kitablarda Azərbaycanın xarici siyasətinin nəzəri əsasları, ayrı-ayrı dövlətlərlə və beynəlxalq təşkilatlarla əlaqələri şərh edilmişdir. Qeyd edək ki, müasir dövrdə NATO-ya inteqrasiya məsələlərini tədqiq edilməsinə və öyrənilməsinə diqqət artmışdır. Tədqiqatda Azərbaycanın NATO-ya inteqrasiyası prosesinin hərbi-siyasi məsələləri əhatə edildiyinə görə, bu sahədə daha çox beynəlxalq-hüquqi normativlərə, ikitərəfli və çoxtərəfii səviyyələrdə əlaqələrin inkişaf etdirilməsi üçün beynəlxalq müqavilə və sazişlərin tədqiq və təhlilinə diqqət yetirilmişdir.

Dissertasiyanın yazılmasında istiqamətverici mənbə rolunu ümummilli lider H.Əliyevin 1997-ci ildə çapdan çıxmış "Müstəqillik yolu" və 1997-2005-ci illər ərzində işıq üzü görmüş çoxcildli "Müstəqilliyimiz əbədidir" kitabları oynayır ki, bu kitablarda yer almış Azərbaycanın xarici siyasətinə dair dəyərli fikirlər tədqiqat işində istifadə edilmişdir.

Azərbaycan Respublikası Prezidenti Katibliyinin nəşr etdirdiyi “Sülh və Təhlükəsizlik Naminə. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubileyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarına səfəri” kitabı mövzunun araşdırılmasında mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan Prezidentinin 22-27 aprel 1999-cu il tarixli Brüssel səfərinin gedişində digər postsovet ölkələrinin də qoşulduğu “Sülh Naminə Tərəfdaşlıq" proqramı ətraflı təhlili olunmuşdu. Ümummilli lider Heydər Əliyev siyasətinin layiqli davamçısı, Azərbaycan Rcspublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Brüsselə 2004-cü il 12 may tarixli səfəri ilə bağlı çap olunmuş məlumatlar, onun NATO Baş katibi Y. Hoop Sxefferlə görüşü və bu görüşlərin gedişində səsləndirilən

[1] Нартов Н.А., Нартов Б.Н. Геополитика. Учеб. М., ЮНИТИ-ДАНА, Единство, 2007, с. 3

fikirlər mühüm elmi və siyasi əhəmiyyət kəsb edir. Dissertasiya işində istiladə edilən digər əhəmiyyətli mənbə Akademik R. Mehdiyevin “Azərbaycan: qloballaşmanın tələbləri” adlı kitabıdır [1]. Tədqiqatda Alyansın dünyanın müxtəlif bölgələrində keçirilmiş Sammitlərinin yekununda qəbul edilmiş və NATO dövlətlərinin mövqeyini əks etdirən bəyannamələrinin mətnləri əksini tapmışdır.

Tədqiqatın mənbələri içərisində internet saytlarından götürülmüş sənəd və materiallar da mühüm yer tutur. Bu baxımdan NATO-nun rəsmi saytı olan www.nato.int-dən əldə edilmiş materialların əhəmiyyəti böyükdür.

Qeyd edək ki, tədqiqatın müəllifi 1997-2004-cü illərdə Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən NATO-nun Brusseldəki Qərargah-Mənzilinin Hərbi Komitəsi yanında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndəsi - Azərbaycan Respublikasının NATO-dakı missiyanın hərbi məsələlər üzrə müşaviri vəzifəsində işləmişdir. Müəllif hərbi diplomatik fəaliyyəti dövründə NATO-nun rəhbər slrukturlarının nümayəndələri ilə görüşmış, seminar və diskussiyalarda fıkir mübadiləsi aparmış və böyük təcrübə məktəbi keçmişdir. Hazırda bu sahədə toplanmış təcrübə elmi-nəzəri baxımdan mənbə xarakterli əhəmiyyətə malikdir.

**Araşdırmanın obyekti və predmeti**. Dissertasiya işinin obyektini müasir dövrdə Azərbaycan-NATO əməkdaşlığı NATO-nun dünya siyasətində yeri kontekstində, predmetini isə bu əməkdaşlığın hərbi-siyasi istiqamətləri, habelə Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrinin genişləndirilməsi sahəsində Ümummilli lider Heydər Əliyev və Respublika Prezidenti İlham Əliyevin fəaliyyətinin işıqlandırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin başlıca məqsədi soyuq müharibə başa çatdıqdan sonra mövcudluğunu qoruyub saxlayan və genişlənməkdə olan NATO-nun fəaliyyətini Cənubi Qafqaz siyasəti kontekstində Azərbaycan Respublikasının maraqları baxımından, hərbi-siyasi əməkdaşlıq çərçivəsində araşdırmaqdır.

Göstərilən məqsədə çatmaq üçün elmi-tədqiqat işinin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur;

- Cənubi Qafqazdakı geosiyasi vəziyyətin və dövlətlər arasında təhlükəsizlik sahəsində münasibətlərin öyrənilməsi;
- Regionda Azərbaycanın təhlükəsizlik maraqları və digər dövlətlərlə münasibətlərinin araşdırılması;
- Cənubi Qafqazda NATO-nun maraqları və Azərbaycan Respublikası ilə münasibətlərinin öyrənilməsi;
- NATO çərçivəsində Azərbaycan–Türkiyə hərbi-siyasi əməkdaşlığının

[1] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. B., XXI-Yeni nəşrlər evi, 2005, 485 s.

araşdırılması;

- regional təhlükəsizliyin təmin edilməsində hərbi və enerji amillərinin tədqiq edilməsi;
- regional təhlkəsizlik baxımından Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında NATO-nun roluna aydınlıq gətirilməsi;
- regional təhlükəsizlik sisteminin yaradılmasına digər maraqlı dövlətlərin münasibətlərinin aydınlaşdırılması;
- NATO-Azərbaycan əməkdaşlığının hərbi-siyasi baxımından qiymətləndirilməsi.
- ən əsası bu əməkdaşlığın regiona verə biləcəyi səmərəsinın elmi əsaslarını araşdıraraq müvafiq təklif və tövsiyyələr irəli sürməklə gələcəkdə də inkişaf etdirilməsinə yardımçı olmaq.

**Tədqiqatın metodoloji və nəzəri əsasları:** Dissertasiya işinin yazılmasında beynəlxalq münasibətlər və siyasi elmlər sahəsində qəbul olunmuş ümumi tədqiqat metodlarından - siyasi analiz, normativ-qiymətləndirmə, funksional, emprik və nəzəri-konseptual yanaşma, materialların öyrənilməsinin müqayisəli və sistemli təhlili, analiz-sintez, tariximəntiqi metodlarından istifadə olunmuşdur.

**Dissertasiya işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir.

- Tədqiq olunan problem Azərbaycan siyasətşünaslıq elmində ilk dəfə olaraq bu şəkildə öyrənilmişdir;
- Cənubi Qafqazın təhlükəsizliyinə olan təhdidlərin xüsusiyyətləri göstərilmiş və təhlil edilmişdir;
- Türkiyə və Azərbaycan arasında strateji əməkdaşlığın regional təhlükəsizliyə təsiri aspektləri araşdırılmışdır;
- beynəlxalq aktorların Cənubi Qafqazın regional təhlükəsizliyinə münasibəti aydınlaşdırılmışdır;
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində regional təhlükəsizliyinə təsir edən amillər üzə çıxarılmışdır;
- Azərbaycan-NATO əməkdaşlığının hərbi-siyasi aspektləri müəyyənləşdirilmiş və inkişaf perspektivlərinə dair müvafiq proqnozlar verilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Azərbaycan-NATO əməkdaşlığını məqsədlərinin iyerarxiya analizi metodu ilə təhlili əsasında aparılması yolu ilə əldə edilmiş elmi-nəzəri nəticələrin praktiki baxımdan qiymətləndirilməsi;

2. NATO-Azərbaycan əməkdaşlığının hərbi-siyasi baxımdan genişləndirilməsi yolu ilə respublikamızda hərbi quruculuq işinin həyata keçirilməsi və Silahlı Qüvvələrin mərhələli olaraq NATO standartlarına keçidi;

3. NATO-nun Avropa münaqişələrinin nizamlanması sahəsində topladığı təcrübənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində

tətbiqi imkanlarının araşdırılması;

4. Ümummilli lider H.Əliyevin və ölkə Prezidenti İ.Əliyevin "balans diplomatiyası" kontekstində Azərbaycanın beynəlxalq əlaqələrinin və Avropa təhlükəsizlik məkanına hərbi-siyasi inteqrasiyasının dərinləşdirilməsində NATO ilə əməkdaşlığın vacibliyinin əsaslandırılması;

**Dissertasiya işinin nəzəri və praktik əhəmiyyəti:** Dissertasiya işində təqdim olunan faktiki material, əsas müddəalar və nəticələr Azərbaycanın Avropanın və Cənubi Qafqaz regionunun digər subyektləri ilə regional əməkdaşlıq proqramlarında iştirakının təmin olunmasında, strateji tərəfdaşlarla münasibətlərin inkişaf yollarının araşdırılması və müəyyənləşdirilməsində, habelə XİN-in müvafiq idarələrinin praktiki fəaliyyətində və müvafiq xarici siyasət konsepsiyalarının, hazırlanmasında istifadə oluna bilər.

Tədqiqat işinin materialları və elmi nəticələrindən beynəlxalq münasibətlər, tarix, geosiyasətlə məşğul olan tədqiqatçılar və mütəxəsislər tərəfindən ali məktəblərdə, xüsusilə beynəlxalq münasibətlər fakültələrində, Ali Diplomatiya Akademiyasında və proqramların hazırlanmasında, beynəlxalq təhlükəsizlik və inteqrasiya məsələlərinə həsr edilmiş konfranslarda və simpoziumlarda NATO münasibətlərinə dair məruzələr edərkən bəhrələnmək olar.

**Tədqiqatın nəticələrinin aprobasiyası:** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunda yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri xaricdə və ölkədə nəşr olunan Dirçəliş-XXI əsr jurnalında, 2010-cu ildə Lənkəranda keçirilmiş Respublika Elmi Konfransının və 2011-ci ildə Skopye, Makedoniya Beynəlxalq Konfransının materiallarında, Milli Elmlər Akademiyasının Xəbərlər büllitenində, Pedaqoji Universitetin Xəbərlərində, AMEA İnsan Hüquqları İnstitutunun doktorantlarının elmi nəşrlərində, Beynəlxalq nəşriyyat mərkəzi «ЭТНОСОЦИУМ»-da, elmi məqalə və tezislər formasında dərc olunmuşdur.

**Dissertasiyanın strukturu**: Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir, fəsillər paraqraflara bölünmüşdür.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın girişində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi və mənbə bazası təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **I fəsili «NATO müasir dünya siyasətində»** adlanır. Fəslin **«Müasir dövrdə transatlantik münasibətlərin səciyyəsi» adlanan I paraqrafında** "soyuq müharibə" başa çatdıqdan sonra beynəlxalq münasibətlərdə regional təhlükəsizliyin səciyyəsi verilir, Almaniya birləşməsi, Yuqosla-

viya, Çexoslovakiya və SSRİ-nin parçalanması nəticəsində dünya siyasətində əsaslı dəyişikliklərin baş verdiyi göstərilir. Bu kontekstdə transatlantika münasibətlərinin inkişafında da yeni mərhələ başladı. Hələ II dünya müharibəsindən sonra qitədə sülh və sabitlik bərpa olunmuşdu. Lakin bu sabitlik bipolyar dünyanın qütbləri arasında mübarizənin nəticəsi idi. Bu qütbləri təmsil edən ABŞ və SSRİ Avropanın qərbini və şərqini nüfuz dairələrinə bölmüşdülər. Məhz bu zəmində də bir sıra hərbi-siyasi qurumların, Avropa İttifaqının, Avropa Şurasının, Varşava Müqaviləsi Təşkilatının, o cümlədən də NATO blokunun əsası qoyulmuşdu.

Soyuq müharibə başa çatdıqdan sonra isə vəziyyət dəyişdi. Belə ki, artıq sovet təhlükəsi mövcud olmadığından Avro-Atlantika münasibətləri də yeni məcraya daxil oldu ki, bu özünü ilk növbədə təşkilatlar səviyyəsində, konkret olaraq onların qəbul etdiyi sənədlərdə göstərirdi. İstər NATO, istərsə də Avropa İttifaqı dəyişən dünya düzəninə biganə adaptasiya olunmağa başlamışdılar. NATO-nun hərbi-strateji kursunda dəyişiklikləri 1990-cı il London və 1991-ci il Roma bəyannamələri aydın şəkildə göstərirdi.[1]

Avropada ABŞ-ın geostrateji maraqlarının böyüklüyü baxımından NATO Alyansı ABŞ-ın Avrasiyada siyasi təsiri və hərbi gücünün möhkəmləndirilməsində mühüm rol oynayır. Avropa dövlətlərinin hələ də öz təhlükəsizliklərini ABŞ-a həvalə etdikləri vaxtda Avropanın hər hansı genişlənməsi birbaşa Amerikanın təsirinin də genişlənməsi deməkdir. Digər tərəfdən, isti transatlantika münasibətləri olmazsa ABŞ-ın Avrasiyadakı birinciliyi itmiş olar. ABŞ politoloqu Z.Bzejinski yazırdı ki, Avropanın həqiqi birləşməsi hələ də mövcud deyildir, Bosniya böhranı göstərir ki, siyasi Avropa hələ də yoxdur və Qərbi Avropa, o cümlədən Mərkəzi Avropa ABŞ-ın protektoratı olaraq qalmaqdadır.[2]

XX yüzilliyin 90-cı illərindən etibarən ABŞ-la Avropa İttifaqı arasında iqtisadiyyat və ticarət sahəsində bağlanan sazişlər həm də qarşılıqlı maraqların təzahürü idi. Sazişlər siyasi, iqtisadi və təhlükəsizlik məsələlərində Avropa İttifaqı ilə ABŞ arasında ortaq məxrəcə gəlmək imkanlarını əyani şəkildə göstərir. Sazişlər dünyada sülhün, sabitliyin və demokratiyanı inkişaf etdirilməsinə, dünya ticarətinin genişlənməsinə və dövlətlər arasında daha sıx əlaqələrin qurulmasına yardım etməklə yanaşı, Avropa və Amerika arasında transatlantik əməkdaşlıq körpülərinin qurulması məqsədlərinə xidmət edir.

Beləliklə, Avropanın hərbi-siyasi inteqrasiyası endogen və ekzogen faktorların təsiri ilə baş versə də tarixi zərurətdən yaranmış və müharibələrdən qurtuluş yolu kimi meydana gəlmişdi. Bu təcrübə nəinki Azərbaycan, ümumiyyətlə Cənubi Qafqaz üçün örnəkdir.

---

[1] Hüseynova H. Azərbaycan Avropa İnteqrasiya prosesləri sistemində, s. 31

[2] Бжезинский З. Великая Шахматная Доска. М., 1999, с. 76

Fəslin **ikinci paraqrafı «NATO–nun 90-ci illər strategiyası»** adlanır. Soyuq müharibə başa çatdıqdan sonra NATO-nun qarşısında duran əsas məsələ Varşava Müqaviləsi Təşkilatına üzv olan ölkələrlə yeni münasibətlərin qurulması və yeni şəraitə uyğun siyasət və strategiyanın həyata keçirilməsi idi. 1990-ci ilin iyulunda keçirilən NATO Şurasının London sessiyası bu prosesə başlanğıc oldu[1]. NATO-nun 1991-ci ilin noyabrında qəbul olunmuş yeni strateji konsepsiyasına görə genişmiqyaslı hücumları dəf etmək üçün hərbi hazırlıqlar Alyansın gündəliyindən çıxarılırdı.

XX əsrin 90-ci illərində yaranmış beynəlxalq şəraitin tələblərinə uyğun olaraq NATO-nun hərbi strategiyasi və siyasətində əsaslı dəyişikliklər həyata keçirildi. Belə ki, 1999-cu ilin aprelin 23-24-də NATO-nun Vaşinqton sammitində Alyansın yeni strateji konsepsiyası hazırlandı. Sənəddə beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsinin zəruriliyi, bu sahədə BMT TŞ-nin fəaliyyətinin gücləndirilməsi, münaqişələrin qarşısının alınması məqsədilə preventiv diplomatiyanın həyata keçirilməsi, konfliktdən sonrakı vəziyyətin bərpasında ATƏT-in roluna xüsusi önəm verilməsi kimi məsələlər öz əksini tapmışdı.

Avroatlantik təhlükəsizlik məkanının postsosialist ölkələrinin hesabına genişlənməsi kifayət qədər mürəkkəb proses olduğuna görə NATO arzu →tərəfdaşlıq→üzvlük formulu üzrə inkişaf strategiyasını müəyyənləşdirmişdi ki, bunun nəticəsində ABŞ-ın təşəbbüsü ilə «Sülh Naminə Tərəfdaşlıq» proqramı (SNT) meydana gəldi. Bu proqram Alyansın 1994-cü il 10-11 yanvar Brüssel görüşündə qəbul edildi və ATƏT-in bütün üzvlərinə şamil olundu.

Milli təhlükəsizliyin qorunmasında Azərbaycanın SNT proqramına qoşulması hərbi əməliyyatların təkrarlanmamasına beynəlxalq qarant demək idi. Bu məqsədlə Türkiyənin NATO-dakı səfiri T.Özçəri 1994-cü ilin martında Azərbaycana dəvət olunmuş, respublika prezidenti H.Əliyev və XİN H.Həsənovla çoxtərəfli danışıqlar aparılmışdı. H.Həsənovun "Azərbaycanın SNT proqramına qoşulması bizi erməni təcavüzündən qorumağa kömək edə biləcəkmi" sualına cavabında T.Özçəri bildirmişdi ki, belə bir qarantiyanın veriləcəyi təqdirdə NATO kollektiv müdafiə və təhlükəsizlik sistemi kimi aradan qalxa bilər. Bununla belə, SNT-yə qoşulma Azərbaycana 16+ 1 formuluna əsasən məsləhətləşmələrin aparılmasına imkan yaradacaqdır.[2]

Uzun sürən diplomatik-siyasi hazırlıqdan sonra 1996-ci il dekabrın 10-da NATO Şurası Alyansın genişləndirilməsi prosesinin başlanğıcı haqqında qərar qəbul etdi və genişlənmə 1999-cu il martın 12-də 3 dövlətin - Macarıstan, Polşa və Çexiyanın, 2004-cü ilin martında Bolqarıstan, Latviya, Litva, Estoniya, Ruminiya, Slovakiya və Sloveniyanın, 2009-cu ilin aprelində isə Alba-

---

[1]Справочник НАТО. Брюссель, 2001, с. 17

[2] Azərbaycan Respublikası XİN arxivi, Azərbaycan- NATO əlaqələrinə dair arayış.1994, s.3

niya və Xorvatiyanın NATO-nun üzvləri sırasına daxil olması ilə nəticələndi ki, bununla da blok üzvlərinin sayı 28-ə çatdı.

Beləliklə, 1949-2009-cu illər arasındakı dövrdə NATO öz sıralarında Avropanı birləşdirməklə ümumavropa təhlükəsizlik məkanına çevrildi və Avropa təhlükəsizliyi qlobal miqyas aldı.

**I Fəslin üçüncü paraqrafı «NATO-nun genişlənmə strategiyası və reallaşması uğrunda diplomatik-siyasi mübarizə»** adlanır. **Birinci alt paraqrafda «XX yüzilliyin 90-ci illərinin geosiyasi reallıqları və NATO-nun genişlənmə strategiyası»** araşdırılır. Məlum olduğu kimi, XX yüzilliyin 90-cı illərində baş vermiş hadisə və proseslərin qloballığı onların ümumbəşəri xarakterə malik olmasında idi. Məhz bunun nəticəsində dünya siyasətində sistem dəyişiklikləri baş verdi, ikiqütblü dünya qaydası tarixə çevrildi, yeni dünya nizamı formalaşmağa başladı.

Təkcə Avropada yox, ümumiyyətlə beynəlxalq aləmdə yeni siyasi vəziyyətin yaranmasına səbəb olan bu hadisələr təhlükəsizlik baxımından NATO-nun fəaliyyətində də köklü dəyişiklikləri şərtləndirdi. Yeni şəraitdə NATO-ya üzv olan ölkələrin dövlət və hökumət başçılarının 1990-1994-cü illərdə keçirilmiş görüşlərində qəbul olunmuş qərarlara əsasən Alyans özünün ümumi strateji konsepsiyasında dəyişikliklər etmiş, yeni strateji kurs mövcud şəraitə trasnformasiya edilməyə başlamışdı[1]

**İkinci altparaqraf «NATO-nun soyuq sülh dövrü genişlənməsi: cənubdan baxış»** adlanır. Yeni beynəlxalq şəraitdə Avroatlantik münasibətlərinin təkmilləşdirilməsi tələb edilirdi. Amerikan politoloqu H.Kissincerə görə "elə yeni strukturlar lazımdır ki, bunlar təkcə təhlükəsizlik məsələləri ilə məhdudlaşmasın və bütün Avropa İttifaqı ölkələrini, o cümlədən də NATO-ya daxil olmayan ölkələri əhatə edə bilsin, müxtəlif Avropa institutlarını, habelə Atlantik Alyansının ABŞ, Kanada, tədricən Meksika kimi Şimali Amerika ölkələrini də öz tərkibinə daxil etmiş olsun"[2]. H.Kissincer belə təsisatlardan biri kimi, Transatlantik Azad Ticarət Zonasının (TAFTA) yaradılması ideyasını irəli sürmüşdü.[3]

"Soyuq müharibəni" yaşayıb, XXI yüzilliyə yeni müstəqil dövlətlərlə qoşulan Avropa öz təhlükəsizliyinin elə şəraitini yaratmaq zərurəti ilə qarşılaşmışdır ki, yeniləşdirilmiş Avropa birliyinin bütün iştirakçılarının mənafelərinə cavab verə bilsin. Yeni vəzifələri həll etmək və yeni öhdəlikləri yerinə yetirmək cəhdləri Avropanı "XXI yüzilliyin təhlükəsizlik modeli"ni işləyib hazırlamaq zərurətini yaratmışdır. Analitiklərin dediyi kimi, artıq bu dövr üçün ATƏT regionun həm BMT-si, həm də NATO-su rolunda çıxış edirdi.

---

[1] НАТО справочник. Брюссель, 2001, с. 48
[2] Киссинджер Г. Нужна ли Америке внешняя политика? М., Ладомир, 2006, с.75
[3] Yenə orada.

Azərbaycanın SNT proqramına qoşulması respublikamızın üzərinə də müəyyən öhdəlik və vəzifələr qoyurdu ki, bunlar fərdi tərəfdaşlıq planına əsasən nizamlanmalı idi. "Çərçivə sənədini" imzalayan hər hansı dövlət, o cümlədən də Azərbaycan NATO-nun mənzil-qərargahına "Prezentasiya sənədi" adlanan sənəd təqdim etmişdi ki, həmin sənəddə proqrama qoşulan dövlətin silahlı qüvvələri, hərbi-texniki ehtiyatları, öhdəlikləri, hərbi büdcəsi, milli müdafiənin planlaşdırılması problemləri, hərbi məsələlərdə aşkarlığın təminatı, silahlı qüvvələr üzərində demokratik nəzarət və s. haqqında ümumi məlumatlar öz əksini tapmışdı.[1] Beləliklə, toplanmış materialların, baş verməkdə olan hadisə və proseslərin təhlili göstərir ki, regional təhlükəsizliyin güclənməkdə və genişlənməkdə olan beynəlxalq xarakteri NATO təhlükəsizlik məkanının genişlənməsini şərtləndirən obyektiv faktorlardan başlıcası olub Şərqə doğru istiqamətlənmişdir və bu baxımdan Avropa İttifaqı ilə eyni müstəvidə inkişaf etməkdədir.

Dissertasiyanın **II fəsli «Müasir dövrdə NATO-nun strateji kursunda dəyişikliklər»** adlanır. Fəslin **birinci paraqrafında «NATO-nun müasir dövrün reallıqlarına adaptasiyası»** prosesi araşdırılır.

Minilliklərin qovşağında dünyanın siyasi mozaikasında əsaslı dəyişikliklər beynəlxalq aləmdə qüvvələr tarazlığının yeni nisbətini yaratmaqla dünya qaydası iştirakçılarının məqsəd və mənafelərində və bunların reallaşdırılması məsələsində əsaslı dəyişiklikləri şərtləndirdi. Amerikan müəlliflərindən R.Kaqan dünya siyasətində yaranmış dəyişikliklərin mahiyyət və məzmununa toxunaraq yazırdı ki, "avropalıların və amerikalıların dünya üzrə ümumi baxışı bölüşdüklərini qələmə verməyi dayandırmağın vaxtı çatmışdır...Artıq amerikalıların Marsdan, avropalıların isə Veneradan olduqlarını başa düşmək lazımdır."[2] ABŞ və Avropa arasında olan münasibətlərdə yaranmış böhran hazırda müzakirə mövzusu olan ən aktual məsələlərdəndir.

XX yüzilliyin 90-cı illərində NATO-nun transformasiyası soyuq müharibədən sonrakı dövrün yeni təhlükəsizlik təhdidlərinə və imkanlarına praktiki cavab verən bir sıra əhəmiyyətli yeniliklərlə xarakterizə olunurdu. Bu sırada SNT proqramının irəli sürülməsi, Balkanlarda münaqişənin nizamlanmasında bu təşkilatın rolu, Rusiya və Ukrayna ilə xüsusi münasibətlərin və Aralıq dənizi regionu ölkələri ilə dialoqun qurulması, NATO standartlarına uyğunlaşmaq üçün Üzvliyə Fəaliyyət Planının (ÜFP) irəli sürülməsini göstərmək olar. ÜFP NATO-nun yeni şəraitə sürətli adaptasiyasını nəzərdə tutan obyektiv və vaxtında irəli sürülmüş fəaliyyət proqramı idi. Sənədin başlıca məqsədlərindən bi-

---

[1] Azərb. Respublikası XİN-in arxivi. Azərbaycan-NATO əlaqələri haqqında arayış, 2001, s. 1
[2] Kagan R. Of Paradise and Power. America and Europe in the New World Order. New York, 2003, s. 3

ri strateji mühit üzrə ümumi baxışı və təhlükəsizliyə olan hədə və təhdidlərin birgə qiymətləndirilməsini təmin etməkdən ibarətdir.

Alyansın 2004-cü ilin iyununda keçirilmiş İstanbul zirvə görüşündə qəbul olunmuş sənəd transformasiya prosesinin davam etdirilməsi istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu. Bununla da soyuq müharibənin sonlarından etibarən NATO yaranmış tarixi şəraitin tələblərinə və üzləşdiyi yeni hədə və təhdidlərə cavab vermək üçün transformasiya prosesini həyata keçirməyə başladı. Müasir dövrdə NATO-nun strateji transformasiyası iki istiqamətdə: siyasi və hərbi istiqamətlərdə aparılır.

NATO-nun fundamental vəzifələrinə daxil olan SNT proqramı təşkilatın 1999-cu il təhlükəsizlik konsepsiyasına əsasən təhlükəsizlik, məsləhətləşmə, müdafiə və böhranların idarəçiliyi kimi vəzifələrlə bir sırada durur. Əgər Avropa İttifaqının genişlənməsi iqtisadi məkanın genişləndirilməsidirsə, NATO-nun genişlənməsi təhlükəsizlik məkanının genişləndirilməsi olub 90-cı illərin ortalarından müasir dövrədək bütövlükdə Aralıq dənizi regionu ölkələrini əhatə etmişdir və şərq sərhədlərinin Monqolustana qədər davam etdirilməsini nəzərdə tutur. Ümumiyyətlə, NATO-nun transformasiyası sadəcə yeniliklərdən ibarət olmayıb onilliklər boyu həyata keçirilməkdə olan əsaslı dəyişikliklərdən ibarətdir.

Fəslin **ikinci paraqrafı «NATO-nun postsosialist məkanı siyasətində Cənubi Qafqazın yeri və əhəmiyyəti»** adlanır. Beynəlxalq aləmdə qüvvələr müvazinətini dəyişən və Yalta-Potsdam sisteminin varlığına son qoyan "məxməri inqilabların" cərəyan etdiyi bölgə kimi Avropanın qısa zaman kəsiyində bütövləşməsi NATO-nun strateji kursunda əsaslı dəyişiklikləri şərtləndirdi. 1991-ci ilin noyabrında Avropa təhlükəsizliyinin gələcək inkişafında mühüm rol oynayan Şimali Atlantika Əməkdaşlıq Şurasının (ŞAƏŞ) əsası qoyuldu və SNT proqramı meydana gəldi.[1] NATO-nun Baş katibi L.C.Robertson təsadüfi olaraq demirdi ki, "Tərəfdaşlıq təkcə yeni müstəqil dövlətlərin NATO-ya qoşulması imkanlarının yaradılması deyil, həm də Avroatlantika təhlükəsizlik məkanının hüdudlarının yaxın gələcəyidir"[2]. Çox keçmədən NATO təhlükəsizlik məkanının hüdudları Cənubi Qafqaz da daxil olmaqla Xəzər dənizinin qərb sahillərinədək uzandı.

NATO-nun SNT proqramının başlıca məqsədi dialoq və əməkdaşlıq yolu ilə ümumi təhlükəsizlik məkanının qurulmasına nail olmaqdır. SNT-nin əsasını tərəfdaş ölkələrlə NATO arasında imzalanmış çərçivə sənədi təşkil edirdi. Qeyd edək ki, SNT proqramının 8-ci maddəsi özünün ərazi bütövlüyü-

---

[1] Jeffrey S. Partnership for Peace at the Istanbul Summit:Dead on Arrival or Revival? www/ndu/inss/symposia/europe2004/simonpaper.htm

[2] Annalisa M. Ten years on- Is there a future for Partnership after NATO enlargement? ISIS Europe, Vol.6 No.l, February 2004, s.5

nə, siyasi müstəqilliyinə və təhlükəsizliyinə birbaşa hədə hiss edən hər hansı tərəfdaş ölkə ilə Alyansın məsləhətləşmələrini nəzərdə tuturdu. Bu isə Vaşinqton müqaviləsinin 4-cü maddəsinə əsasən fəaliyyət göstərmək demək idi.[1] Qısa müddətə SNT proqramına 20-yə yaxın tərəfdaş ölkə, xüsusilə də keçmiş sovet respublikaları, o cümlədən də Cənubi Qafqaz dövlətləri – Azərbaycan, Gürcüstan və Ermənistan qoşuldular..

Fəslin **üçüncü paraqrafı «Böyük Orta Şərq layihəsinin reallaşmasında NATO – nun rolu »** adlanır. XXI yüzilliyin əvvəllərindən etibarən ABŞ-ın xarici siyasət fəaliyyətində yer alan Böyük Orta Şərq layihəsi əsrin qlobal layihələrindən ilkini hesab edilə bilər. Onun reallaşmasında NATO bloku mühüm rol oynayır. Layihənin yaranması ötən əsrin sonlarının reallıqları ılə bağlı olmuş, Yaxın Şərq və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının mənimsənilməsi uğrunda gedən mübarizədən qaynaqlanmışdı.

Hazırda beynəlxalq münasibətlərdə geniş yer almış və siyasi terminologiya daxil olmuş «Böyük Orta Şərq» anlayışı özündə Yaxın və Orta Şərqin 28 ölkəsini əhatə edir. Bu geniş əraziyə ərəb dövlətləri, İran, Türkiyə, Əfqanıstan, İsrail kimi dövlətlər daxildir ki, bu da müasir Avrasiya məkanının sərhədlərinə uyğundur. Müasir politoloji fikrə əsasən, «Böyük Orta Şərq» deyilən geniş məkana coğrafi baxımdan nəzər salsaq, üç qitənin birləşdiyi, üç irqin görüşdüyü bir məkan nəticəsi almış olarıq ki, bu böyük məkanın dini palitrası da rəngarəngdir. Böyük Orta Şərq dörd dünya dinin kəsişdiyi və birləşdiyi bir bölgədir: iudaizm, xristianlıq, buddizm və islam dinləridir. Digər tərəfdən, iki fəlsəfi düşüncə sistemi – Şərq və Qərb düşüncə sistemləri bu məkanda üzüzədir. Dünya insan resurslarının 70%-inin yaşadığı bu bölgə iqtisadi zənginlik baxımından alternativsizdir. Dünya neft ehtiyatlarının 55,6%-i, qızıl ehtiyatlarının 70%-i, su və digər maddi ehtiyatların böyük qismi bu bölgədə cəmlənmişdir.[2]

Müasir dövrdə NATO Aralıq dənizi regionu və Böyük Orta Şərq ölkələri ilə təhlükəsizlik sahəsində sıx tərəfdaşlığı inkişaf etdirməkdədir. Təhlükəsizliyi və sabitliyi Avro-Atlantika ilə sıx bağlı olan bu bölgə ilə əlaqələrin inkişaf etdirilməsi Alyansın əsas prioritetlərindən biridir. Genişlənən dialoq və bu regiondakı ölkələrlə əməkdaşlığın əsas cəhətləri 2004-cü ilin iyununda NATO-nun İstanbul sammitinin qərarlarında əks olunmuşdur. Bununla da, NATO-nun on il əvvəl əsası qoyulmuş Aralıq dənizi dialoqunda iştirak edən ölkələr daha ambisiyalı və genişləndirilmiş tərəfdaşlığa dəvət olunmuşdular.[3]

---

[1] www.nato.int/docu/basictxt.treaty.htm
[2] Quliyeva G.M. Azərbaycan yeni geosiyasi münasibətlər sistemində. B., Elm, 2011, s. 357
[3] Walter R.M. Power, Terror and War: NATO Grand Strategy in a World at Risk. New York: Knopf, 2007, s. 302.

NATO Baş katibinin 2004-cü ilin sonlarında Dialoq ölkələrinə səfərləri zamanı ölkə və hökumət başçıları və baş nazirlərlə görüşlərində ümumi təhlükəsizlik siyasəti məsələlərində ortaq razılıq əldə olunmuşdu.[1] Aparılmış araşdırmalar göstərir ki, NATO ABŞ-ın irəli sürdüyü layihəni bütövlükdə dəstəkləmiş və onun reallaşması istiqamətində səylərini daim artırmaqdadır.

Dissertasiyanın **III fəsli «Azərbaycan Respublikasının hərbi siyasətində NATO amili»** adlanır. Fəslin **birinci paraqrafında «Azərbaycan-NATO əməkdaşlığının yaradılması və inkişafı»** prosesi araşdırılır.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etdikdən sonra dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən tanınması nəticəsində respublikamızın dünya birliyinə sistemli surətdə inteqrasiyasına geniş yol açıldı. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq öz növbəsində siyasi münasibətlərin dərinləşməsi, qarşılıqlı etimadın güclənməsi yolunda mühüm əhəmiyyət kəsb etməyə başladı.

Azərbaycan Respublikasının çoxtərəfli əlaqələrində NATO ilə əməkdaşlıq mühüm yer tutur. Azərbaycan NATO əlaqələri öz başlanğıcını 1991-ci il dekabrın 20-də qəbul olunmuş Brüssel toplantısının Müraciətindən götürmüşdür. Müraciətdə başqa dövlətlərlə yanaşı Azərbaycan da ŞAƏŞ-in 1992-ci il martın 10-da keçiriləcək görüşünə dəvət edilmişdi.[2] Digər beynəlxalq təşkilatlarla əlaqələrin yaradılmasında olduğu kimi, bu məsələdə də Azərbaycan ilk yardımı Türkiyədən almışdı. Azərbaycanın NATO-ya inteqrasiyası əməli şəkildə Türkiyə ilə 1992-ci ilin avqustunda imzalanmış hərbi-siyasi müqavilədən başlanır ki, həmin müqaviləyə əsasən ikitərəfli hərbi əməkdaşlığın hüquqi bazası yaradılmışdı.

Azərbaycanla NATO arasında qarşılıqlı münasibətlərdə ciddi addımlar 1992-ci ilin oktyabrından etibarən atılmağa başlandı, lakin bunlar epizodik və səthi xarakter daşıyırdı. Azərbaycan nümayəndə heyəti NATO-nun üzvü olan ölkələrin Türkiyədə təşkil olunmuş seminarında iştirak etmiş və NATO-nun Baş katibi M.Vernerlə görüşmüşdülər. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmiş, ikitərəfli əməkdaşlığın inkişafı zərurəti qeyd olunmuşdu. Rusiyanın dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi Azərbaycanı BMT, ATƏT, Aİ və NATO kimi qüdrətli beynəlxalq təşkilatlarla əməkdaşlığa vadar edirdi ki, istər ümummilli lider H.Əliyevin, istərsə də Prezident İ.Əliyevin çoxşaxəli diplomatik-siyasi fəaliyyəti məhz buna yönəlmişdi.

---

[1] http://www.heritage.org/research/europe/issues 2004.cfm (The Heritage Foundation: NATO and European Defense).

[2] Hüseynova H. Göst. əsəri, s. 114

NATO Baş katibi X.Solananın 1997-ci ilin fevralında Bakiya səfəri NATO-Azərbaycan əlaqələrinə bir sıra yeniliklər gətirməklə NATO-nun ölkəmizlə bağlı niyyətlərinin ciddi olduğunu göstərdi. X.Solana səfər ərəfəsində mətbuat konfransında bəyan etmişdi ki, Azərbaycan Prezidenti ilə görüş zamanı Dağlıq Qarabağ probleminin həlli yolları müzakirə ediləcək, Azərbaycanın hərbi potensialının beynəlxalq standartlara uyğunlaşdırması istiqamətində danışıqlar aparılacaqdır. NATO baş katibi həmçinin blok ölkələrinin Madrid sammitinə qədər Qaqfaz dövlətləri ilə əməkdaşlığın genişləndirilməsi əleyhinə Rusiyanın mövqeyinə region ölkələrinin münasibətini öyrənmək istədiyini də qeyd etmişdi.

Azərbaycan-NATO münasibətlərində mühüm məqamlardan biri də ümummilli lider H.Əliyevin Azərbaycanın NATO-ya üzvlüyünə münasibəti məsələsidir. Aparılmış tədqiqatların elmi ümumiləşdirilməsi bizə belə nəticəyə gəlməyə imkan verir ki, H.Əliyev bu məsələdə kifayət qədər ehtiyatlı hərəkət etmişdir, çünki regionun geosiyasi xəritəsini yaradanlardan biri məhz H.Əliyev idi. Təsadüfi deyildi ki, 1997-ci ilin sonlarınadək H.Əliyev bir dəfə də olsun Azərbaycanın NATO-ya qoşulmasına münasibət bildirməmiş, hətta zərurət yarandıqda belə bunun gündəlikdə olmadığını birmənalı şəkildə bəyan etmişdi. Yalnız uzunmüddətli informasiya hazırlığından sonra 1999-cu il iyunun 18-də H.Əliyevin sərəncamı ilə Bakı şəhərində NATO idarəsinin yaradılması üçün hazırlıq işlərinə başlanmışdı. Yeni minillik ərəfəsində beynəlxalq şərait Azərbaycana NATO-ya açıq şəkildə müraciət etmək imkanı verirdi ki, ümumilli lider H.Əliyev 2000-ci ilin martında bu haqda bəyanat vermişdi.

Azərbaycanın NATO bloku ilə əməkdaşlığının müasirlik və perspektivlər baxımından qiymətləndirilməsində nəzərə alınması kifayət qədər əhəmiyyətli olan amillərdən biri də neft amilidir. Azərbaycan politoloji fikrinə görə, yeni reallıq ondan ibarətdir ki, amerikalıların maliyyə-iqtisadi və hərbi yardımları hesabına başlıca problemlərini həll etməyə çalışan Ukrayna və Gürcüstan ABŞ tərəfindən suverenliklərinin məhdudlaşdırılması ilə də qarşılaşırlar. Halbuki məsələyə belə yanaşsaq müasir dövrdə Azərbaycanın yeritdiyi müstəqil siyasi xətt nə ABŞ-ı, nə də Rusiyanı təmin etmir. Bununla belə, neft gəlirləri Azərbaycana imkan verir ki, ölkənin milli maraqlarına cavab verən siyasi xətti və özünü dünyanın güc mərkəzlərindən bərabər uzaqlıqda saxlamaq prinsipini dönmədən reallaşdırsın.

Fəslin **ikinci paraqrafı «Hərbi sahədə Azərbaycan - NATO əməkdaşlığı»** adlanır. Azərbaycanın ŞAƏŞ-in fəaliyyətinə qoşulması ilə bağlı məsələ Baş nazir H.Həsənovun 1992-ci il fevralın 19-da Brüssel səfəri zamanı ətraflı müzakirə olunmuşdu. H.Həsənov NATO nümayəndələrinə Dağlıq Qarabağ münaqişəsinin qaynaqları və nizamlanması yolları haqqında Azərbaycanın mövqeyini çatdırmaqla yanaşı, Rusiyanın regiona münasibətdə ikibaşlı oyunu, Azərbaycanın məhz buna görə beynəlxalq təşkilatların dəstəyinə ehti-

yacı olduğunu vurğulamış və hadisələrlə tanış olmaq üçün NATO Baş Katibi M.Verneri Azərbaycana dəvət etmişdi ki, məhz bunun nəticəsində Azərbaycan 1992-ci il martın 10-da ŞAƏŞ-in üzvlüyünə qəbul edilmişdi. [1] Az sonra, 1993-cü ilin sonlarında NATO rəhbərliyi Cənub-Qərb komandanlığının fəaliyyət dairəsinin genişləndirilməsi, Qara dəniz hövzəsi və Cənubi Qafqazın da bu komandanlığın məsuliyyət zonasına aid edilməsini qərarlaşdırdı.[2]

NATO-ya daxil olan ölkələrlə ikitərəfli əlaqələrin qurulması məsələsinə daha çox diqqət yetirən Azərbaycan diplomatiyası müstəqilliyin ilk dövrlərindən Türkiyə, İngiltərə, Almaniya və ABŞ kimi NATO dövlətlərinin dəstəyini əldə etməyə çalışırdı.

Azərbaycan-NATO əməkdaşlığında dönüş ümummilli lider H.Əliyevin 1993-cü ilin ortalarında hakimiyyətə yenidən qayıdışından sonra dəyişməyə başladı. NATO-nun müasir dünyamızda yerini və rolunu düzgün müəyyənləşdirən H.Əliyev Azərbaycanın SNT proqramına qoşularkən güddüyü məqsədlərdən birinin də, Dağlıq Qarabağ problemi ilə bağlı olduğunu qeyd edirdi. BMT və ATƏT-in münaqişənin aradan qaldırılması sahəsindəki uğursuzluqları əslində həlledici sözün Rusiyaya məxsus olmadığı NATO-da Azərbaycanın uğur qazanmaq imkanlarını artırırdı. Məsələyə məhz bu baxımdan yanaşan H.Əliyev Azərbaycanın güddüyü məqsədləri belə açıqlayırdı: "Biz NATO ilə əməkdaşlığa böyük ümid bəsləyirik. Bu əməkdaşlıq həm Azərbaycanın Qərb demokratiyasına qoşulması, həm də NATO ilə əməkdaşlıq edərək regionda vəziyyəti sabitləşdirməyə, müharibəni dayandırmağa, Azərbaycan ilə Ermənistan arasında sülh yaratmağa yönəldilmiş əlavə yollar axtarmaq baxımından bizdən ötrü çox mühümdür..."[3]

Azərbaycanın SNT proqramına qoşulması bütövlükdə Cənubi Qafqazda qüvvələr balansında yeni keyfiyyət dəyişikliyi yaratdı.

Hərbi quruculuq işlərinin gedişində 1997-ci ildən etibarən Azərbaycan NATO standartları və proseduralarına uyğun olaraq müdafiə və qüvvə planlaşdırması üçün bazanın yaradılmasına başlanmış, müttəfiq qüvvələrlə birlikdə çoxmillətli məşq, təlim və əməliyyatlara qatılaraq öz sülhməramlı qüvvələrini yaratmışdır. Təhlükəsizlik şəraitinin təkamülü və yeni təhdidlərin ortaya çıxması milli müdafiə sistemi çərçivəsində yeni yanaşmanı və vasitələrin yaradılmasını tələb edirdi. 2007-ci ilin 23 may tarixli Milli Təhlükəsizlik Konsepsiyası əsasında Azərbaycanın Hərbi Doktrinası və Dəniz Təhlükəsizliyi Strategiyası hazırlanmışdır. 2007-ci ilin avqustunda milli və hərbi təhlükəsizlik haqqında qanunların qəbulu 2011-2015-ci illər üçün müdafiə planlarının təfərrüat-

---

1 Azərb.Respublikası XİN-in arxivi. Beyn. təşkilatlar idarəsinin arayışı, 2004, s. 2
2 Yenə orada, s. 3
3 Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır, c.128-129

ları və prioritetlərinin hazırlanmasına və həyata keçirilməyə başlamasına imkan vermişdir.

Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasina görə, "NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək" Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur[1]. Hazırda Azərbaycanın Silahlı Qüvvələri 1999-cu ildən etibarən sülhməramlı əməliyyatlarda iştirak edir. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin zabit heyəti isə NATO-nun müxtəlif hərbi strukturlarında iştirak etməklə öz tövhəsini verməkdədir.

Fəslin **üçüncü paraqrafı «Azərbaycan-NATO əməkdaşlığı məqsədlərinin iyerarxiya analizi metodu ilə təhlili»** adlanır.

"İyerarxiya Analizi Metodu" İAM xüsusilə dövlətin təhlükəsizliyi və hərbi quruculuq kimi vacib məsələlərdə özünü daha qabarıq göstərir. Azərbaycan-NATO əməkdaşlığını da elə bu prizmadan sezsək onda görərik ki, həll edilən problemlərin mürəkkəbliyi və qəbul edilən qərarların məsuliyyəti ön plana çıxır. Bu halda metodologiyadan qərarın qəbul edilməsinin konkret mexanizminə qədər yol əhəmiyyətli dərəcədə azaldıla bilər. İctimai-siyasi xarakterli məsələlər kifayət qədər mürəkkəb və çoxmeyarlı olduğu üçün onun mahiyyətini heç bir mücərrəd riyazi modellə təsvir etmək mümkün olmur.[2]

Bu nöqteyi-nəzərdən heç bir formal riyaziyyat insan ağlını və real dünyanın interpretasiya təcrübəsini əvəz edə bilməz. Bu istiqamətdə tədqiqatçı baxılan problem üzrə dərk olunan və olunmayan amilləri, əlində olan bilik və təxəyyülləri iyerarxiyaya daxil etmək imkanı qazanır. İyerarxiya səviyyəsinin azalması ilə fikirlərin sayı zəncirvari sxem üzrə artır ki, bunu da hər bir insan məntiqi dərk edə və nizama sala bilmir.[3] İAM-in riyazi aparatı bu fikirləri məntiqi nizamlamaq və bu fikirlərdən irəli gələn suallara cavab olaraq alternativlərə uyğun prioritetlər vektoru formasında miqdarı qiymət vermək imkanı yaradır.[4]

İyerarxiyanın məqsədi, ümumi məqsədə nail olunmasında hər bir aktorun töhfəsini müəyyən edir və bununla iterasiya prinsipi həyata keçirilir. Məqsədə nail olmaq üçün ayrılmış məbləğ qarşıya qoyulan töhfədən asılıdır və bununla da ehtiyatların effektli istifadəsi prinsipi həyata keçirilir. Son olaraq,

---

[1] Azərbaycan Respublikasının Milli Təhlükəsilik Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2198 saylı fərmanı ilə 23 may 2007-ci ildə təsdiq edilmişdir // Azərbaycan qəzeti, 2007, 4 avqust

[2] Thomas L. Saaty, Multicriteria Decision Making, Vol 1, The Analytic Hierarchy Process: Planning, Priority Setting, Resource Allocation, 2nd edition (October 1990), 437 pages,

[3] Thomas L. Saaty. Göst. əsəri, s. 26

[4] Ожиганов Э.Н. Моделирование и анализ политических процессов, s. 78

ifadə edilmiş məqsədlər uzun müddətlidir və ona görə də uzun müddətli məqsədlərin prioriteti prinsipi həyata keçirilir.[1]

Qeyd etmək lazımdır ki, aktorların ifadə edilmiş fərdi məqsədləri İAM-ın həyata keçirilmə mexanizminin nümayişi məqsədilə təsviri xarakter daşıyır. Aktorların əsl fərdi məqsədlərinin ifadəsi xüsusi işlənilmə tələb edir. Belə ki, bəzi məqsədlər aktorlar üçün ümumidir və bundan başqa, (belə məqsədlər çoxluq təşkil edir), yalnız aktorların bunlara nail olunmasında iştirak səviyyəsi müxtəlifdir. Lakin ümumi məqsədin əldə edilməsində bu və ya digər aktorun rolu, çəkisi, töhfəsi aktorların maliyyələşdirmə səviyyəsindən asılıdır.[2]

İyerarxik struktur tərtib edildikdən sonra, aktorların meyarları müəyyənləşdirilir və hər bir meyar üzrə alternativlər cüt-cüt müqayisə matrislərinin köməyi ilə qiymətləndirilir. Meyarlar müqayisə edildikdə, adətən, hansı meyarın daha çox vacib olduğu, alternativlər müqayisə edildikdə isə hansı alternativin daha çox üstün olması müəyyənləşdirilir.[3]

**Nəticədə** tətddiq edilən problemlə bağlı ümumləşdirmələr aparılmış, Avropa təhlükəsizlik modelinin inkişaf perspektivlərinə toxunulmuş, respublikamızın Avropa təhlükəsizlik sisteminə inteqrasiyasının praktiki əhəmiyyəti açıqlanaraq bu kontekstdə öz həllini gözləyən problemlərə aydınlıq gətirilmiş, təklif və tövsiyələr irəli sürülmüşdür.

---

[1] Thomas L. Saaty. Göst. əsəri, s. 26

[2] Ожиганов Э.Н. Göst. əsəri, s. 78

[3] Yenə orada

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. NATO-nun yaradılmasının tarixi əhəmiyyəti və vacibliyi/Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu, DİRÇƏLİŞ-XXI əsr, 2010, № 145-146, s.237-252
2. Milli təhlükəsizlik sisteminin güc strukturları tərəfindən qərar qəbuledilməsinə yeni elmi yanaşma/Respublika Elmi Konfransı, Lənkəran, 2010, s.255-257 (t.e.d.,dos.Z.Məhərrəmovun həmmüəllifliyi ilə)
3. NATO-nun genişlənmə strategiyası «soyuq müharibə»dən sonrakı dövrdə /AMEA İnsan Hüquqları İnstitutunun doktorantlarının elmi nəşrləri, 2011, s. 206-217
4. Azerbaycan - NATO İşbirliği Maksatlarının Analitik Hiyerarşi Metodu ile Tahlili / Beynəlxalq Konfransı-Skopye Makedoniya 2011 (BALKAN STUDİES I geograpy and geostrategy), s.331-353
5. Çoxmeyarlı hərbi-siyasi məsələlərin həlli metodologiyası/Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu, DİRÇƏLİŞ-XXI əsr, 2011, № 153-154, s.334-344 (t.e.d., dos. Z.Məhərrəmovun həmmüəllifliyi ilə)
6. XX yüzilliyin 90-cı illərinin geosiyasi reallıqları və NATO-nun genişlənmə strategiyası/Pedaqoji Universitetin Xəbərləri, B., 2011, №3, s.180-188
7. NATO-nun soyuq sülh dövrü genişlənməsi: cənubdan baxış/Pedaqoji Universitetin Xəbərləri. B., 2012, №4, s.237-252
8. NATO-nun müasir dövrün reallıqlarına adaptasiyası/Pedaqoji Universitetin Xəbərləri, B., 2012, №1, s.225-234
9. Эволюция стратегических установок НАТО и ее особенности/Международный издательский центр. М., «ЭТНОСОЦИУМ», 2011, №6 (38), s.252-260
10. Böyük Orta Şərq layihəsinin reallaşmasında NATO- nun rolu/Milli Elmlər Akademiyasının Xəbərlər bülliteni 2012 / 1
11. Azərbaycan-NATO əməkdaşlığının yaradılması və inkişafında Ümummilli lider Heydər Əliyevin rolu/Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu, DİRÇƏLİŞ-XXI əsr, xüsusi buraxılış, 2012, № 168, s.181-197

**Р.Р.Ахундов**

# Военно-политические аспекты сотрудничества Азербайджана с НАТО

## АННОТАЦИЯ

В диссертационной работе, посвященной изучению аспектов военно-политического сотрудничества между Азербайджаном и НАТО, исследуется динамика развития сотрудничества между нашей республикой и военно-политической организацией, обладающей ведущей ролью в современных международных отношениях.

Диссертационная работа включает в себя введение, три главы , девять параграфов, заключение и список литературы.

Во введении обосновывается актуальность темы, анализируется степень научной разработанности проблемы, определяются цели и задачи исследования, раскрываются научная новизна и практическая значимость работы.

Первая глава называется «НАТО в современной мировой политике» и состоит из трех параграфов. В данной главе приводится характер трансатлантических отношений, вносится ясность в характерные черты стратегии НАТО в 90-е гг., в политико-дипломатическую борьбу организации за стратегию расширения и ее реализации, раскрываются геополитические реалии 90-х гг. XX столетия и явления и процессы стратегии расширения НАТО, а также становятся объектом исследования такие вопросы, как геополитические результаты расширения НАТО в период «холодного мира» для нашего региона.

Вторая глава посвящена изучению «Изменениям в стратегическом курсе НАТО в современную эпоху» и состоит из трех параграфов. В данной главе исследуется вопросы, как особенности адаптации НАТО к реалиям современного мира, место и значение Южного Кавказа в политике постсоциалистического пространства НАТО, роль НАТО в реализации проекта Большого Среднего Востока, поддержка НАТО территориальной целостности Азербайджана в отношении армяно-азербайджанского, Нагорно-Карабахского конфликта.

Третья глава, названная как «Фактор НАТО в военной политике Азербайджанской Республике», также состоит из трех параграфов. В данной главе были изучены такие вопросы, как налаживание сотрудничества Азербайджан-НАТО с первых лет независимости и проблемы его развития, пути расширения сотрудничества Азербайджан-НАТО в военной области, а также применение целей военно-политических аспектов сотрудничества Азербайджан-НАТО в методе иерархического анализа.

В заключении подводится итог проведенному исследованию, проводятся обобщения, даются практические рекомендации в связи с расширением многостороннего сотрудничества, выдвигаются прогнозы по перспективам развития.

**R.R.Akhundov**

## Azerbaijan-NATO cooperation in the political-military aspects

## OVERVIEW

Development dynamics of cooperation between our republic and with a political-military organization that has leading role in modern international relations is being studied in dissertation dedicated to research of political-military aspects of cooperation of Azerbaijan Republic with NATO.

The dissertation consists of introduction, 3 chapters, 9 sections, results and list of literature.

In the Introduction the importance of issues such as practical significance are shown, innovation of science, the goals and objectives of the research are defined, the degree of the study of the problem is analyzed and actuality of the issues are verified.

The first chapter is called "NATO policy in the modern world" and consists of three sections.Characteristics of transatlantic relations in modern era, characteristic features of NATO's 90s strategy, organization's expansion strategy and implementation for the diplomatic and political struggle are all clarified in the first chapter. Also geopolitical realities of 1990s, event and processes of NATO's enlargement strategy and as well as expansion of NATO's cold peace period, as a geopolitical result issues turns into the subject of research for our region are shown in the first chapter.

The second chapter is dedicated to learning "The Changes in NATO's strategy course in modern era" and it consists of three sections.NATO's adaptation to the realities of the modern era, position and importance of South Caucasus in the post-soviet politics of NATO, NATO's role in the implementation of the project Great Middle East and in relation to the Azerbaijan-Armenian, Nagorno-Karabakh conflict, NATO's support for Azerbaijan's territorial integrity issues have been studied in this chapter.

"NATO factor in the military policy of Azerbaijan Republic" referred to in the third chapter consists of three sections. This chapter examines issues such as creation and development problems of Azerbaijan-NATO cooperation since the first years of independence, ways of enlargement of Azerbaijan-NATO cooperation in military sphere and as well as the implementation in the hierarchical analysis method of objectives of Azerbaijan-NATO political-military aspects cooperation.

As a result forecasts about developing perspectives are put forward, practical recommendations are given with regard to the expansion of multilateral cooperation, generalization are being carried out and conclusion is given to the conducted research.